**Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkə gənclərinə göstərilən qayğı, diqqət bütün dünyaya nümunədir. Keçirilən tədbirlər, panellər, konfranslar, dəyirmi stollar və s. bu kimi yüksək tədbirlərdə yaradıcı gənclər həmişə öndədir. Dövlətimizin yürütdüyü siyasət nəticəsində biz gənclər yalnız təhsil almaqla kifayətlənmir, həm də ictimaiyyətdə baş verən hadisələrə münasibət bildirə, tədbirlərdə iştirak edə bilirik. Söylədiyimizə nümunə olaraq, son günlər Gəncədə keçirilən və yalnız ölkədə deyil, dünya mətbuatında işıqlandırılan bu qədim şəhərin "Avropa Gənclər Paytaxtı" seçilməsi ilə bağlı keçirilən tədbirləri hələ uzun müddət fəxrlə xatırlayacağıq.**

Tədbirinin rəsmi açılışında iştirak edən dövlət nümayəndəsi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Prezident İlham Əliyevin "Gəncə-2016-cı il Avropa Gənclər Paytaxtı" layihəsinin açılış mərasiminin iştirakçılarına ünvanladığı məktubunu oxuyub.

Bu qələbə bir şəhərin yox, bütöv Azərbaycanın qələbəsidir.

# Avropadan Gəncəyə əsən dostluq küləyi

Məlum olduğu kimi, "Avropa Gənclər Paytaxtı" layihəsi ilk dəfə 2009-cu ildə Avropa Gənclər Forumu tərəfindən irəli sürülüb. Layihənin məqsədi yerli və xarici gənclər təşkilatlarının beynəlxalq əməkdaşlığının inkişaf etdirilməsi, "Avropa Gənclər Paytaxtı" seçilmiş şəhərlərin aid olduğu ölkələrin gənclər təşkilatları milli şuraları arasında təcrübə mübadiləsinin aparılmasıdır. Avropanın ilk gənclər paytaxtı 2009-cu ildə Niderlandın Rotterdam şəhəri seçilib. 2010-cu ildə Turin (İtaliya), 2011-ci ildə Antverp (Belçika), 2012-ci ildə Braqa (Portuqaliya), 2013-cü ildə Maribor (Sloveniya), 2014-cü ildə Saloniki (Yunanıstan), ötən il isə Kluj Napoca (Rumıniya) Avropa gənclər paytaxtları olub. Gəncənin 2016-cı ildə "Avropa Gənclər Paytaxtı" seçilməsi barədə qərar 2013-cü il aprelin 10-da Yunanıstanın Saloniki şəhərində elan edilib.

Vaxtilə Azərbaycanın paytaxtı olmuş bu qədim şəhərin yaşının 2500 ildən çox olduğu vurğulanıb. Qeyd olunub ki, Gəncə əhalisinin üçdəbir hissəsini gənclər təşkil edir. Ona görə də Gəncə-2016-cı il "Avropa Gənclər Paytaxtı" seçilib.

Ümumiyyətlə, burada əsas məqsəd Gəncəni Avropa ilə yaxınlaşdırmaq, bu şəhərin istedadlı gənclərinin Avropaya inteqrasiyasına imkan yaratmaq, avropalı gənclərə isə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni təqdim etməkdir. Müstəqillik illərində Azərbaycanda gənclər siyasətinin uğurlu modeli formalaşıb. Azərbaycan Prezidenti tərəfindən gənclərlə bağlı Dövlət proqramları, o cümlədən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf strategiyası" təsdiqlənib. Azərbaycandakı gənclər təşkilatları, beynəlxalq gənclər platformaları ilə sıx əməkdaşlıq edir. Azərbaycan Avropanın nadir ölkələrindəndir ki, burada Gənclər və İdman Nazirliyi ilə yanaşı, Gənclər Fondu da fəaliyyət göstərir. Dövlət tərəfindən həm gənclər təşkilatlarına, həm də fərdlərin layihələrinə dəstək verilir. Fond fəaliyyət göstərdiyi 4 il ərzində 3226 layihəni maliyyələşdirib. Azərbaycan Prezidenti İlham Əliyevin "Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında Sərəncamı" ilə bağlı şəhərdə il ərzində maraqlı layihələr həyata keçiriləcək. Bu tədbirlərdən biri kimi Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində "Gəncə-2016-cı il Avropa Gənclər Paytaxtı" layihəsinin açılış mərasimi keçirilib.

Statistik göstəricilərə nəzər salsaq, Avropa Gənclər Forumunun idarə heyətinin üzvü Lora Lübonova, Avropa Gənclər Paytaxtları Şəbəkəsinin icraçı direktoru Andras Farkas çıxışlarında Avropanın Gənclər paytaxtı seçilməsinin Gəncəyə köhnə qitə ilə əlaqələri inkişaf etdirmək üçün daha böyük şans verəcəyinə diqqət çəkiblər. Bu, gənclər üçün də əlavə imkanlar yaradır. Bir il ərzində onlar avropalı həmyaşıdları ilə də sıx əlaqə qura biləcəklər.

Türkiyənin Əskişəhər valisi Əzim Tunar Güngör isə çıxışında Gəncənin bu titula yiyələnməsinin ortaq mədəniyyət və işbirliyi baxımından əhəmiyyətini diqqətə çatdırdı.

Bunun nəticəsidir ki, bu il yalnız Gəncə şəhərinə 5000-ə yaxın qonağın gələcəyi gözlənilir. Gəncənin füsunkar gözəlliklər məkanı Göygölü elə dillər əzbəri deyilmi?

Gəncədə dünənlə bu gün, keçmişlə-müasirlik, qədim və yeni şəhər elə ahəng təşkil edir ki, göz oxşayır. Bütün bunlar bizdə qürur hissi oyadır. Bu ölkənin gəncləri olduğumuz üçün fəxr edirik.

**Nuriyə RƏFİYEVA,**
**Azərbaycan Turizm və Menecment Universiteti, II kurs tələbəsi**

